# SALATIN ƏHMƏDLİNİN PUBLİSİSTİKASI

*(Əvvəli ötən sayımızda)*

Kitabın "Heydər Əliyev Müstəqil Azərbaycan dil siyasətinin əsaslarının yaradıcısı kimi" adlanan ikinci fəslində Dövlət dili sahəsində Azərbaycan dilinə, Azərbaycan dilçiliyinə və azərbaycan dilli təhsilə geniş yollar açılması, 70-80-ci illərdə H.Əliyevin ölkədə apardığı dil siyasətinin mahiyyəti, həmçinin" Azər-baycan Respublikasının Konstitusiyası"nın 21 Maddəsinin "Dövlət dili" adlandırılması və s. məqalələr öz geniş əksini tapmışdır.

"Onun "Heydər Əliyev və dil siyasəti" kitabı, əslində ana dilimizin hüdudlarını genişləndirən, çərçivələrini darmadağın edən bir insanın -Vətəndaşın ürəyinin səsi, harayıdır." (Zahid Xəlil) Salatın Əhmədlinin 2013-cü ildə "Elm" nəşriyyatında nəşr olunan "Heydər Əliyev və ədəbi proses" adlı mono-qrafiyası dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycanın memarı, böyük mütəfəkkir Heydər Əlir-za oğlu Əliyevin ədəbi-nəzəri irsinə həsr olunmuşdur. Bədii-fəlsəfi fikirlərlə zəngin Azərbaycan ədəbiyyatı Ulu öndər üçün hər şeydən öncə Azərbaycan xalqını dünyada tanıtmaq, onun qədimliyini, bəşəri düşüncəyə malik olmasını sübut etmək, türk xalqlarının birliyini nümayiş etdirmək vasitəsi idi.

Publisist Salatın Əhmədli "Heydər Əliyevin ədəbi -tarixi proses konsepsiyası" adlı məqalədə yazır: "Heydər Əliyev bir filosof kimi materialist, bir ədəbi-nəzəri fikir sahibi kimi realist idi. Onun üçün bədii ədəbiyyatın dəyəri hər şeydən öncə həyat həqiqətini, real və tarixi gerçəkliyi hansı bədii obrazlarla, hansı hüdud və çərçivələrdə əks etdirməsi ilə ölçülürdü. Onun "ədəbi-tarixi proses" nəzəriyyəsi də belədir. Real gerçəklik tutumu bu anlayışı da ölçmək, onun məzmununu və bədii sərhədlərini təyin etmək üçün başlıca meyardır. Burada realist dünyabaxışı ilə tarixilik bir-birini tamamlayır. O, bütün problemlərin həllində tarixiliyə istinad edir və ona görə uduzmur, həmişə obyektiv mövqe tutmağa və qərar verməyə nail olurdu.

Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyası çoxcəhətli təlimdir. Ona məxsus başlıca bir cəhəti də qeyd etməliyik: bu konsepsiyanın aparıcı təmayül-lərindən biri də maarifçilik idi. Böyük siyasətçi bədii sözün qüdrətindən nəinki geniş mənada oxucunu maarifləndirmək üçün istifadə edir, hətta gənc yazıçıların klassik ənənələrdən, bədii irsin təcrü-bələrindən öyrənməsini zəruri hesab edirdi." ("Səs" qəzeti. 2013. 7 mart)

Ümumiyyətlə, ulu öndərimiz Heydər Əliyevin 35 ilə yaxın hakimiyyəti dövründə Azərbaycan Yazıçılar Birliyinə, ədəbiyyatımıza və ayrı-ayrı yazıçılara göstərdiyi qayğılar saysız-hesabsızdır. Keçmiş İttifaq dövründə şəxsən Heydər Əliyevin dəstəyi ilə Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rəhimov və digər yazarlar yüksək fəxri adlara layiq görülmüşlər. Məhz onun təşəbbüsü ilə dahi Hüseyn Cavidin məzarının qalıqları uzaq Sibirdən Azərbaycana, doğulduğu Naxçıvan torpağına gətirildi. Nəsiminin anadan olmasının 600, Füzulinin 500 illik yubileylərinin dünya miqyasında qeyd olunması da, ilk növbədə, görkəmli dövlət xadiminin adı ilə bağlıdır.

"Heydər Əliyev zəkası və Füzuli dühası" başlıqlı məqalədə H.Əliyevin Füzuli ilə bağlı görüşləri onun ümumiyyətlə klassik irsə münasibətinin miqyaslarını əks etdirir, tarixilik və müasirliyin vəhdəti onun klas-sik irsə münasibətinin metodoloji əsasını müəyyən-ləşdirir: " Əslində bu, klassik irsi müasirliyin dili ilə oxumaq nümunəsidir. Füzuliyə münasibətdə Heydər Əliyev zəkası ilə Füzuli dühası bir-birini üzvi şəkildə tamamlayır. Füzuli dühasının mahiyyətini açmaq və bütün cahana göstərmək XX əsrdə hamıdan çox H.Əliyevə nəsib olmuşdur." ("525-ci "qəzet. 7 mart)

Cavid sənətinə hələ keçən əsrin 70-ci illərindən maraq göstərən Heydər Əliyev onun adını Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirənlər sırasında çəkmişdir. Səksəninci illərin əvvəllərindən isə ümummilli liderimiz Hüseyn Cavid irsinə müntəzəm diqqət göstərmiş, şairə layiqli qiymətin verilməsi işinə nəzarəti bir an belə zəiflətməmişdir.

"Heydər Əliyev və Hüseyn Cavid taleyi" adlı mə-qalədə müəllif vurğulayır ki, "Dünya romantizminin görkəmli nümayəndəsi, Azərbaycan ədəbiyyatında romantizm cərəyanının banisi Hüseyn Cavid həmişə ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olmuşdur.

1982-ci ildə H.Cavidin cənazəsini uzaq Sibirdən gətirməsi və doğma Naxçıvan torpağında dəfn etdirməsi, bu gün Cavidlərin birgə uyuduğu möhtəşəm məqbərənin tikilməsi Ulu Öndər Heydər Əliyevin böyük qəhrəmanlığı, misilsiz rəşadəti, təkcə Cavidə deyil, ümumən Azərbaycan ədəbiyyatına, bədii-ictimai fikrinə tarixi ehtiramı idi. O, 1995-ci ildə Hüseyn Cavidin məqbərəsinin və ev muzeyinin yaradılmasına həsr edilmiş müşavirədə demişdir: "Bilirsiniz ki, Hüseyn Cavidin həyatı, yaradıcılığı Azərbaycan üçün nə qədər dəyərli, əhəmiyyətli olub, onun qoyduğu ədəbi-mənəvi irs bizim üçün nə qədər əhəmiyyətli və gərəklidir. Eyni zamanda, onun həyatı faciəli olubdur. Ancaq bu faciəli dövrlər onun yaradıcılığını Azərbaycan xalqının qəlbindən çıxara bilməyib, yaşadıbdır".("Xalq qəzeti,2013.10. mart)

Salatın xanım Əhmədlinin "Şirvannəşr" mətbə-əsində Azərbaycanın mütəfəkkir şairi Hüseyn Cavidin



xatirəsinə həsr olunmuş "Hüseyn Cavidin ev muzeyi" kitabı çap olunmuşdur. 167 səhifəlik kitabda represiya qurbanı olan şairin həbs və sürgün həyatını əks etdirən tarixi məlumatlar, ailəsinin çəkdiyi məşəqqətli günləri əbədiləşdirən fotolar, ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə şairin ev muzeyinin yaradılması, nəşinin uzaq Sibirdən Azərbaycana gətirilməsi və doğma Naxçıvanda dəfni ilə bağlı materiallar toplanmışdır. Burada H.Cavidin yubileyi ilə əlaqədar Naxçıvanda, Bakıda, Türkiyədə keçirilən tədbirlər geniş şərhlə verilmiş, xalq şairi Nəriman Həsənzadənin ölməz şairə həsr etdiyi poema və şeirləri əks olunmuşdur.

Yazıçı, publisist Salatın xanım Əhmədlinin "Böyük ömrün salnaməsi" monoqrafiyası etno-mədəni düşüncə sistemində məxsusi yeri olan böyük dövlət xadiminin anadan olmasının 150 illiyinə həsr olunub. Monoqrafiya Azərbaycanın müstəqilliyinin bərpa-sından sonra S.Ağamalıoğlunun həyat və fəaliyyətinin elmi baxımdan sistemli tədqiqatına edilən ilk cəhddir. Kitab həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına uyğun Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə töhfədir.

S.Əhmədli kitabında bildirir ki, görkəmli dövlət xadimi haqqında tədqiqatın əsas məqsədi S.Ağa-malıoğlunun gerçək obrazını tarixi faktlarla, elmi əsaslarla ortaya qoymaqdır. Müəllifin fikrincə, bu monoqrafiya S.Ağamalıoğlunun fəaliyyəti ilə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin müxtəlif ideoloji aspektlərdən tədqiqi üçün mənbə rolunu oynayacaq.

"Böyük ömrün salnaməsi"nin elmi redaktoru akademik Nizami Cəfərov kitabın ön sözündə bunları yazır: "Salatın Əhmədlinin "Böyük ömrün salnaməsi" kitabının dəyəri ondadır ki, yaxın tarixə münasibətdə obyektiv baxışların qərarlaşmağa başladığı bizim günlərin əhval-ruhiyyəsinə uyğun olaraq, görkəmli ictimai-siyasi xadim haqqında aydın, əsaslandırılmış və kifayət qədər geniş təsəvvür yaradır. Həyatı, dünyagörüşünün formalaşması, milli məfkurə mübarizələri, Cümhuriyyət Parlamentində bir sosial-demokrat olaraq göstərdiyi qızğın fəaliyyət, Sovet dövrünün xüsusilə ilk illərində "mədəni inqilab" prosesinə rəhbərliyi - buraya ilk növbədə, "yeni əlifba"ya keçid hərəkatı, I Türkoloji qurultayın təşkili və s. daxildir - Azərbaycanda, ümumən Şərqdə qadın azadlığı uğrunda mücadiləri və s. barədə həm ətraflı, həm də sistemli məlumatlar verən müəllif Azərbaycan xalqının tarixində S.Ağamalıoğlunun, həqiqətən, mütərəqqi bir şəxsiyyət kimi mühüm yer tutduğunu bir daha təsdiq edir". (S.Əhmədli. "Böyük ömrün salnaməsi. Bakı.2018)

Salatın Əhmədli monoqrafiyasında S.Ağamalıoğlu haqqında məhdud sayda olan araşdırmalardan, arxiv materiallarından, S.Ağamalıoğlunun çap olunmuş və geniş ictimaiyyətə az məlum olan kitab və məqalələrindən istifadə edib, bir neçə maraqlı fotoşəkil verib.

Salatın Əhmədlinin "Soykökümüz, milli-mənəvi mədəniyyətimiz, tariximiz..." adlı kitabı Elməddin Əlibəyzadənin çoxşaxəli yaradıcılığının elmi-nəzəri cəhətləri araşdırılıb. Salatın Əhmədli təhlilə çəkdiyi mövzunu həssas və dəqiqliklə şərh etməklə bərabər, monoqrafiyanın bütün səhifələrində bir vətəndaşlıq amalı duyulur: "Elməddin Əlibəyzadə həmişə Azərbaycan tarixinin, xalqının, onun kökü-mənşəyi məsələlərinin, mənəvi-mədəniyyət abidələrinin keşiyində dayanan əsgər, komandir, general rolunu oynamışdır. O, ən tutarlı dəqiq elmi məlumatlara, tarixi mənbələrə, tədqiqatçıların əldə etdikləri elmi nailiyyətlərə diqqət yetirmiş və dünya elm xadimlərinin hər birinin türk, Azərbaycan xalqları haqqında, onların kökü, tarixi barəsində deyilənlərə bir-birindən maraqlı, yeni, elmi məlumatlar əlavə etmişdir".(S. Əhmədli. "Soykökümüz, milli-mənəvi mədəniyyətimiz, tariximiz. Bakı. 2015)

Salatın Əhmədli qəhrəmanının Nizami Gəncəvi ilə bağlı tədqiqat və araşdırmalarını çox diqqətlə öz fikir süzgəcindən keçirərək yazır: "Nizami yaradıcılığı bütöv bir tarıxdir." Biz həqiqətən bu dərinliyi doğru-düzgün mənimsəyə bilsək, tariximizin çox açılmamış qatlarına işıq düşər."

Salatın xanım yalnız ölkəmizdə deyil, xarici ölkələrdə-İranda, Türkiyədə, Ukraynada Azərbaycan ədəbiyyatı və mədəniyyətinin yayılmasında, təbliği sahəsində xeyli iş görmüşdür. Onun "Hər kim yüz il unutmasa", "Bir elatın dastanı","Analar köç edəndə", "Hekayələr" kitabları İranda ərəb əlifbası ilə Azərbaycan dilində çap olunmuşdur. Onun "Heydər Əliyevin dil siyasəti", "Analar köç edəndə" əsərləri türk dilinə çevrilmiş, Türkiyədə çap olunmuşdur.

Azərbaycan oxucusu Salatın Əhmədlinin publisistik məqalələrində dövrün real mənzərəsini görür, cahanın ictimai-siyasi hadisələrinin dolğun təcəssünü duyur. Onun məqalələri qaldırılan məsələnin həllindən, problemlərin məna tutumundan, əhatə dairəsinə görə dinamikdir.

Öncə qeyd etdiyimiz kimi, onun məqalələrinin leymotivi -Vətən sevgisi, doğma torpağa bağlılığıdır. Yaradıcılığının digər sahələrində olduğu kimi, publisistikasında da, hər şeydən öncə, bütün sevgilərdən uca tutduğu vətən eşqini tərənnüm edən yazıçı yalnız bu duyğunun etirafı, tərənnümü ilə qənaətlənmir, Vətəninin dərdlərini, ağrı-acılarını, problemlərini göstərməyə çalışır.

Salatın xanım Əhmədli doğma Azərbaycanımızı göz bəbəyi kimi sevən, onun şöhrətini ucaltmağa çalışan bir millətsevər qadındır. Salatn xanımın insanlıq keyfiyyətlərindən, yaradıcılıq xüsusiyyət-lərindən saatlarla danışmaq olar. Xeyriyyəçilik, səxavət, sadəlik, səmimiyyət Salatın xanımın qanında, xislətindədir.

Salatın xanım hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetinin Azərbaycan dili və pedaqogikası kafedrasının müdiri və dosentidir. Eyni zamanda çalışdığı ali məktəbdə YAP Qadınlar Şurasının sədridir.

Salatın xanımın göstərdiyi xidmətlərinə görə "Qızıl Qələm", "Məhsəti", "Vicdanlı Qələm", "Milli heysiyyət" və s. kimi mükafat və fəxri diplomlarla mükafatlandırılmışdır.

Bütün gücünü, istedadını vətənin işıqlı sabahına, ədəbiyyatının, mədəniyyətinin inkişafına həsr edən, alim, yazıçı, publisist Salatın xanım Əhmədliyə Allahdan can sağlığı,uzun ömür arzulayırıq.

***Vüqar SSHMSSD,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Mətbuat tarixi və publisistika" şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor.***

***Dilbər RZAYEVA,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Mətbuat tarixi və publisistika" şöbəsi, elmi işçi.***